

Turan Uğur
AYB-nin üzvü

**Qeyd: Bu esseni vaxtilə Mədəniyyət Tv-də yayımlanan, müəllifi olduğum “Sətirlər” verilişinin, “Baharda doğulanlar” rubrikasının ssenariləri əsasında yazmışam.**

# Baharda doğulanlar

## (Cəfər Cabbarlı, İsmayıl Şıxlı, Salam Qədirzadə, Ənvər Əlibəyli)

(başlanğıcı ötən sayımızda)

***...Bir bayram günündə insana nə hədiyyə edərlər əcəba?.Mübarək Novruz, Bahar bayramımızı nəzərdə tuturam.Nə bəxşiş edərlər insana? Evdə bişirilən şirniyyatından, qoğalından, şəkərburasından, paxlavasından, qovurğasından xonça düzəldib pay verərlər qonu-qonşuya, tanış-bilişə, qohum-əqrabaya.Bir Tanrı hədiyyəsi isə bunlarla kafi olmaz.20 mart 1899-cu ildə bizə - xalqımıza əta edilən bəxşişin, hədiyyənin adı Cəfər Cabbarlıdır.Bu həddiyyəyə ehtiyacımız hər zaman var.***

Cəfər Cabbarlı kimi ədəbi dühaların gücü və qüvvəsi bəs edər ki, bizi sevməyənlərin gün-



güzəranı xəcil olsun.19-cu əsrin son təqvim ilində, fəsli-zimistana vida söyləyən Xızı dağlarının xəcalətli yox, əksinə rəşadətli və bir qədər də özündən müştəbeh görünməsinin səbəbi Cəfər Cabbarlıyla bağlı imiş. Sən demə, köhnə ildən qalan təbiət, təzə ili qarşılamaq naminə Cəfərin pişvazına çıxacaq, öncə onun bayramını qutlayacaq, mübarək elimizə sonra təşrif buyuracaqmış.Qos-qoca Xızı dağları yüz illərin bayatısını sinəsində sən demə Cəfər üçün bəsləyirmiş.Bu pərvərişlə Xızı dağlarıyla bir məqama yetişən ulu misralarımız gələcəyin ünlü sənət adamı üçün bu sayaq söylənməzmi?

**Bu dağlar ozan yeri,**
**Aşığın azan yeri.**
**İlan ollam, öpərəm,**
**Ayağın gəzən yeri.**
**deməzmiydi Cəfərinə?**

127 il öncə Xızıda - Qafar kişinin ocağında, daha konkret desək, daxmasında doğulmuşdu.Meşədən odun qırıb satan, külfətini halal zəhmətiylə dolandıran kasıb bir insanın var-dövləti dünyaya gəlmişdi.Körpənin dünyaya təşrifinin başəratçisi Qafarın bacısı, Cəfərin bibisi Zərnişan idi.Ard-arda körpələrini itirən Cəfərin anası Şahbikə üçün bu xəbər yaralarına məlhəm olmuş, bala acısını qismən də olsa soluxdurmuş, övladlarıyla bağlı ümid alovunu bir daha körükləmişdi.Ailənin sağ qalan dördüncü övladının bəxti əməlli başlı kəc gətirmiş, atasızlığın tamını 3 yaşında dadmışdı balaca Cəfər.

**Bayatı ay bayatı,**
**Gəz bu eli-elatı...**

-deyibən yaz təvəllüdlü ədiblərimizi zəngin folklorumuzun nümunələri ilə çağırsaq, bizdən küsən də tapılmaz.Qorx o kəslərdən ki, çağıra bilmirlər, dad o adamların əlindən ki, lal-pitik olmaqdır peşələri.

“Şücaətim”,”Eşidənlərə”adlı ilk şeirləri “Həqiqəti-əfkar” qəzetində nəşr olunanda hələ 1911-ci il idi.Müxtəlif təxəllüslərlə çıxış edir, “Cabbarzadə” soyadı ilə hekayələr nəşr etdirirdi.”Vəfalı Səriyyə”,”Solğun çiçəklər”, ”Nəsrəddin şah”,”Ədirnə fəthi” yeniyetmə çağlarının nəsr nümunələridir.Hələ Gülüşlər, Sevillər, Balaşlar, Almazlar qarşıdakı dayancaqda intizarla ədibi gözləyirlər.Tədricən, aram-aram püxtələşən Cəfər Cabbarlının pyes qəhrəmanları olmaq üçün növbəyə, sıraya düzülmüşlər sanki.”Karvanı malı ilə, sarvanı şalı ilə yeyən” Dilbər xanımların, yəni Edilyaların işvəli baxışları Balaşın ahını alacaqmış, müflis edib onu naçar duruma salacaqmış ki, Balaşın qarasıyca ”Nə coraba yumaqdır, nə yırtığa yamaq” - deyənlər tapılsın.“Gör nə günlərə qaldın, öz cəzandı çək Balaş” - deyəcək, beləcə bir ədabazın taleyini qarğıyıb, azarladığı günləri hələ ona dərs olacaqmış.Sevilin timsalında qadın azadlığı yox, şəxsiyyət azadlığının təntənəsi gənc ədibin ruhuna sızmış, istiqlalçılıq, hürriyyət, müasirlik ideyası ürəyini fəth etmişdi. Yurdumuzu sevməyənlərə, istilaçılara haqq səsini hayqıraraq - “Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım”- deyibən Azərbaycan bayrağını qəlbinə sıxmağı, köksünə pərçim etməyi də varmış gənc Cəfər Cabbarlının.

***Milli bayram günümüzdə - 20 mart tarixində doğulan yazıçımızın dünyadan köçən günü 31 dekabrdır.Bir çox xalq təqvim ilinin son gününü qeyd etdiyində Cəfər Cabbarlı haqqa qovuşdu.Millilikdən bəşəriliyə gedən yolun koordinatlarını ədibimiz necə də sərrast və dürüst şəkildə cızmış. Milli olan qədər bəşəri olan Cabbarlıya da bu yaraşardı.***

İsmi-əzəm şairimizin təkcə ismi yox, həm də şəxsiyyəti, yaradıcılığı əzəmətli və sanballıdır.Bu, hər zaman belə olmuşdu. Cəfər Cabbarlı yaşadığı bütün ictimai formasiyalarda, bütün mühitlərdə ikonaya çevrilən şəxs idi. Həm çar hökuməti zamanı, həm Cümhuriyyət dönəmində, həm də Sovet işğalından sonra.Nədir bu sirr? Bəlkə bunu izah etmək lazım deyil, fenomenal şəxslər barəsində düstur və formulalar aramaq, onların cazibəsini izah etmək nə qədər gülünc, nə qədər bayağı görünür, deyilmi?! Amma həqiqi görünən odur ki, yazıçının sevdiyi, tapındığı məmləkətin adı Azərbaycandır.

Ey Cəfər, tapdıqlarına və tapındıqlarına mərhaba!

Baharda doğulan, el-obamıza gəlişindən sonsuz dərəcədə müşərrəf olduğumuz ədiblərimizdən biri də Xalq yazıçısı İsmayıl Şıxlıdır.Ərz edim ki, İsmayıl Şıxlı sevgisini təhtəlşüurumuzda mürgüyə qalmış mental kodlarımızda aramalıyıq. Sovet ideologiyasının ənənələrimizi qamçıladığı zamanda, Novruz bayramını ədəbiyyatımıza gətirən kişi idi İsmayıl müəllim. Ədəbiyyatımıza, sonra da kinomuza. ”Dəli Kürdən” söhbət gedir.Bayram şölənlərinin, göstərilərinin, adətlərinin təbii, sanballı, koloritli çıxması üçün Novruz səhnələrinin çəkilişində yazıçı özü şəxsən iştirak etmiş, “baca-baca gəzmək”, “xurcun atmaq” kimi təzahüratlara diqqət kəslib, necə deyərlər, hər şeyi seçib-sonalamışdı İsmayıl Şıxlı.

Ancaq tələsməyək, İsmayıl Şıxlının “Dəli Kürə” gedən yolu 1919-cu ilin martın 22-indən başlayırdı.Novruz günlərində xalqımıza ərməğan olunan sevgili yazıçımızın doğuldu yer Qazağın İkinci Şıxlı kəndidir.Şəcərəsi, nəsli Şıxlinskilərin mübarək soy və boyu ilə qovuşurdu.Hərb tariximizin nəhəng siması olan, artilleriya generalı Əliağa Şıxlinskinin yaxın qohumu idi.Qazaxda dünyaya gəlmək, zatən biixtiyar şəkildə saza və sözə doğuluşdan könül verməkdir.Belə də tərif verə bilərik: “Bəbəlikdən babalığa gedən yolda sazı çiyində, sözü dildə görənlərə”- Qazax elində doğulanlar deyirlər.Bir də lap çağa yaşından qamçılanmaq vardı taleyində. Bəy nəslinin nümayəndəsi kimi atası Qəhrəmanı və qohumlarının qanını it qanına döndərən Sovet başbilənləri cəfalı günlər yazdılar Şıxlinskilərin taleyinə.

**Aşıq naşı əlindən,**
**Ağlar naşı əlindən**
**Yastıq şikayət eylər**
**Gözüm yaşı əlindən.**
**Aşıq yamana gələ,**
**Dərdin yamana gələ.**
**Yaxşı yaxşıya gedə**
**Yaman yamana gələ.**
**Dağlarda qar qalandı,**



**Yağdıqca qar qalandı**
**Qarğalar laçın oldu,**
**Laçınlar qarğalandı.**

Tariximizin belə dözülməz anlarında xalqın sinəsi bu cür bayatılarımızla qövr etməzmi?! Bu yanğılı misralarımız Şıxlı nəslinin könlünü dağlayanları hədəf alsın.Alsın da, yağıların əlləri daim qoynunda, gözləri müdam yollarda olsun!

***Yeniyetmə çağlarında İsmayıl Şıxlıya “xoş gördük”- deyən ilk növbədə qonşu Kosalar kəndinin camaatı oldu, müəllimləri-Mirqasımın, Əlinin timsalında savadlı, dünyagörüşlü, həyatı bilən kişilər gənc İsmayıla yol göstərdilər.O da bu öyüdləri cavabsız qoymadan, ”Yol tutan bal tutar” - deyibən yola çıxdı; elm, poeziya və nəsr yoluna.Çox sualın cavabını hələ gənc çağlarından əxz etmişdi, görüb-götürmüş, cavan yaşlarında hörmət, ehtiram qazanmışdı. “Bezi söz, qeybəti söhbət yerinə” satanların ahını almışdı İsmayıl Şıxlı.”Nəsihətlə gülə-gülə gəlməyənləri, müsibətlə döyə-döyə gətirərlər” devizini rəhbər tutanlardan idi.Amma cəsarət və rəşadət nümunəsi kimi yaşamağı öz həyat kredosu bildi ömrü boyunca.Qorxunu kişiliyə yaraşdırmadı.1941-ci ilin iyununda dava başlayarkən, Pedaqoji İnstitutda dövlət imtahanı verməyə macal tapmamışdı.Nosun ki...Əvəzində başqa imtahan gözləyirdi onu: “hərb imtahanı”.Hələ cəbhəyə yollanıb müsəlləh əsgər kimi vətənin keşiyində duranda vur-tut 22-23 yaşı vardı.***

”Kerç sahillərində”, ”Səhəri gözləyirik”, ”Konserv qutuları”, ”Haralısan ay oğlan?” cəbhə illərindən oxucular üçün ərməğan edilən gündəliklərdir.

“Gecə-gündüz alman tanklarının əleyhinə xəndəklər qazır, dəmir dirəklər basdırır, tikanlı məftillər çəkirdik.Biz imkan vermirdik ki, almanlar Mozdokdan bu yana Dərbəndə irəliləsinlər.Biz Xəzər sahilindən Qara dəniz sahilinə, Tuapse tərəfə, oradan Krasnodar şəhərinə doğru irəlilədik.İrəlilədik demək düz deyil, əslində biz bu yolları dizin-dizin süründük, qarış-qarış keçdik” (Cəbhə gündəlikləri)

Bütün bunlara insanı tit-tir titrədən, dəli kimi silkələyən, içdən təbii şəkildə silkinib çıxmış məhrəm yazıçı xatirələri də deyə bilərik.

”Ayrılan yollar” a qədər uzanan kəşfiyyat xarakterli yazıları, yeni üslub arayışları idi bütün bunlar.Axı ədəbi cameədə müəllim bildiyi Mehdi Hüseyn ona “konkret müşahidələrini qələmə al” demişdi.Deməli, yazıçı müşahidələri və konkret yazıçı yaşantıları adlandıracağımız bir roman da var-”Ayrılan yollar”.

1954-55-ci illərdə yazılan “Ayrılan yollar” bir növ 1950-ci illərə qədər yaranan, kolxozçu, pambıqçı könlünə məlhəm sayılan, indi hardasa gülüş doğuracaq qədər bəsit səslənən:

**“Qol çırmayıb sən tarlaya çıxanda,**
**Səs yayılır hər mahala Süreyya**
**Ağ pambığı becərəndə, yığanda,**
**Gəlməyəsən heç zavala, Süreyya”**

kimi mətnlərin qəhrəmanları “əməyin azad, diləyin azad”- deyib meydan sulayırdılar. Biz ona görə İsmayıl Şıxlı, İsa Muğanna, bir qədər sonra Anar, Elçin, Mövlud Süleymanlı, Fərman Kərimzadə kimi yazıçılara minnətdar duyğular bəsləyirik ki, prozamızı pambıq tarlaları təki ayaqaltı olmaqdan xilas etdilər.Onların önündə İsmayıl Şıxlı gedirdi ki, monumental əsərləri ilə, pafosdan, bər-bəzəkli, bəzək-düzəkli sətirlərdən qaçıb, özündən sonra gələnlərə də işıq tutdu.Və bu işığı elə saçdı ki, arxada gələnlərin gözləri qamaşmadı.

Çətin məqamlarda isə bir an belə durmadı, duruxmadı, sinəsini önə verib, “Azərbaycan” jurnalının redaktoru kimi yeni nəsil yazıçıların əsərlərinə yol açırdı.Yazıçı Anarın “Anlamaq dərdi” və “Şəhərin yay günləri” yazılarını nəşr etdirən məhz İsmayıl Şıxlı olub. O, bir çox mənfi streotopləri, müşkül sayılan ənənələri “Dəli Kür” romanı ilə sındıra bilib. Əsərin 1957-1967-ci illərdə -10 il müddətinə yazıldığı qeyd edilsə də, yazıçının övladı Elçin bəylə söhbət zamanı romanın deyildiyi vaxtdan bir qədər əvvəl; yəni il yarım, iki il tez bitdiyi qənaətinə gələ bildik.Lakin istənilən halda böyük zəhmət və vaxt hesabına ərsəyə gələn “Dəli Kür” “İlklər romanı” sayılır.İsmayıl Şıxlı romanda öz nəslinin, öz mahalının tərcümeyi-halını dəqiqliklə, dürüstlüklə və bədii priyomlarla verə bilib.Bu əsər “hadisə”- deyə biləcəyimiz əsərlərdəndir və bu cəhətdən tək-tük romanlardandır.İsmayıl müəllim üç müəllim nəslinin tarixçəsini verərkən, Kürü “dəli” çağırmasının tarixini keçmişimizin qanlı-qadalı, dərdli-bəlalı olması kimi izah edib.Görəsən Ana Kürü, Dəli Kür kimi görməkdə yazıçının hansı səbəbləri vardı? İsmayıl Şıxlı bu nüansı əsər boyu gizli xətlə cızmış-deyə düşünürəm.Başı bəlalar, günü məlalar çəkmiş tariximizin, yurdumuzun hayqırtısını Dəli Kürün dəliliyində, bağırtısında, iniltisində vermiş ədibimiz.Ey dəli Kürüm, dəliqanlı Kürüm, sənə deyəcəklərim var! Çoxları bilməz, sən axı tanıqsan, tanıqsan ki, filmdə görüntüyə alınan ehtişamlı, məğrur Kür çayının görüntüləri İsmayıl Şıxlının özünə məxsusdur.Özü seçmişdi o mənzərələri İsmayıl müəllim, şəxsən özü bulmuş, özü çəkmişdi. “Dəli Kür” romanını xalqımızın eposları ilə yanaşı tutmaqda əsaslar var.Bütöv bir dövrü:

19-cu əsrin sonu 20-ci əsrin əvvəllərinin bütün ictimai-sosial, mədəni mənzərələrini ortaya qoyur bu əsər.Miqyası, nəhəngliyi ilə seçkin bir nümunədir.Ən əsası millidir, xalqa yaxındır.Hadisələr, epizodlar yox, xarakterlər yığnağıdır bu roman.Cahandar ağa, Şahnigar, Mələk, Şamxal, Əşrəf, Allahyar, Molla Sadıx və.s.Hə, bir də ki

Rus Əhməd.Kmisinə görə bu, “firəng Əhməd” ləqəbli Əhməd bəy Ağaoğlunun, kiminə görə “Rus Əhməd” ayamalı Əhməd bəy Cavanşirin prototipidir.”Dəli Kür”ün Rus Əhmədini belə də çağırmaq olar-ziyalı, maarifpərvər, yurdsevər birisi.

***Sayğıdəyər ziyalımız Elçin Şıxlı ilə söhbət zamanı bu nüansı da öyrənmiş olduq ki, sən demə, “Rus Əhməd” Qazaxda məşhur ziyalı nəsli kimi tanınan Seyidovların nümayəndəsidir- Molla Seyidin nəvəsi, Yusif kişinin oğlu, ruhunu saygı ilə andığımız pedaqoq, ziyalı Əhməd Seyidovun prototipidir...***

(ardı gələn sayımızda)